# İnklüziv təhsilin inkişafında beynəlxalq əlaqələr və dövlət siyasəti

**Kəmalə Cahid qızı Omarova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** kemaleomarova1@gmail.com

**Rəyçilər:** p.ü.f.d. G.T. Eminova,
p.ü.f.d. P.M. Həsənova

**Açar sözlər:** dövlət proqramı, qanunvericilik, beynəlxalq əlaqələr, inklüziv təhsil, əlilliyi olan uşaqlar, Skandinaviya modeli

**Ключевые слова:** государственная программа, законодательство, международные коммуникации, инклюзивное образование, дети с ограниченными возможностями, Скандинавская модель

**Key words:** state program, legislation, international communications, inclusive education, children with disabilities, Scandinavian model

İnklüziv təhsillə bağlı son rəsmi sənədə diqqət yetirsək, görərik ki, "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında ölkə Prezidenti Sərəncam imzalayıb və həmin sənədin "Gözlənilən nəticələr" bölməsində təhsilin bütün pillələri üzrə təhsil müəssisələrinin infrastrukturunun əlilliyi olan şəxslərin ehtiyaclarına uyğunlaşdırılması, bu qəbildən olan uşaqlar üçün informasiya texnologiyalarının tətbiqinin təşkili, sağlamlıq imkanları məhdud uşaqlar üçün məlumat bazasının yaradılması, onların təhsilə cəlb olunma imkanlarının qiymətləndirilməsi üçün yeni qaydaların tətbiqi kimi müddəalar öz əksini tapıb (1).

2005-2009-cu illəri əhatə edən Dövlət Proqramında da təxminən bu sərəncamın müddəaları ilə yaxınlıq təşkil edən bəndlər var idi: bərabər imkanların yaradılması; məlumat bazasının formalaşdırılması; əlilliyi olan uşaqların qeydiyyatının aparılması və qiymətləndirilmə prosesinin təşkili.

Hökumətin bu sahəyə xüsusi qayğısı açıq-aşkar şəkildə hiss olunur. Sadəcə, Dövlət Proqramının müəyyən olunmuş bəndlərinin reallaşması və həyata keçirilmə mexanizmində özünü göstərən çatışmazlıqlar problemin kökündən həll olunması yolunda maneələr yaradır. Beləliklə, qəbul olunmuş sənədlərdə yer alan maddələr kağız üzərində mövcudluğunu qoruyur, reallıqda isə natamam şəkildə yerinə yetirilir. Natamamlıq, bütövlüyün olmaması, sistemsizlik, icraediciliyin zəifliyi problemin həll olunmadan mövcudluğunu qoruyub saxlaması ilə nəticələnir.

İnklüziv təhsil sahəsində ən mühüm amillərdən biri, siniflərin təşkili məsələsindən sonra həmin siniflərdə dərs deyəcək pedaqoji heyətin həm biliyi, həm təcrübəsi, həm də psixoloji cəhətdən hazır olması məsələsidir. Belə bir deyim var: *"Üç məktəbdən qovulmuş bir şagirdi yeni məktəbə gətirirlər. Birinci dərsə girən müəllim onu görüb ürəyində deyir: "Belə uşaqlar hardan gəlir axı?" İkinci dərsə gələn müəllim yeni şagirdi görüb hirslə: "Elə bir sən çatmırdın!", - deyir. Üçüncü müəllim isə sevinclə: "Ooo, yeni şagirdimiz var!" - deyib ona yaxınlaşır, əlini sıxır, gözünün içinə baxır və gülümsünüb deyir: "Salam. Mən səni gözləyirdim" (2,* s. 30*).*

İşlədilən ilk iki ifadədən də aydın olur ki, bu təfəkkürə sahib olan müəllimlər ən azından psixoloji cəhətdən inklüziv təhsilin tətbiq edildiyi məktəb və siniflərdə əlilliyi olan şagirdlərlə işləmək potensialında deyillər. Belə siniflərdə tədris işini yerinə yetirəcək olan pedaqoji heyə-

tin mütləq şəkildə öncədən təlimlərə cəlb olunub müxtəlif istiqamətli hazırlıqlardan, maarifləndirici söhbətlərdən keçmələri vacibdir. Düzdür, 2018-ci ildən etibarən Avropa İttifaqının maliyyə dəstəyi ilə UNİCEF Azərbaycan və Təhsil Nazirliyi, həmçinin RİİB-in birlikdə təşkil etdiyi "İnklüziv siniflərdə təlimin təşkili" adlı layihə əsasında respublikanın şəhər və rayonlarında yerləşən ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün ili il müddətində həm oflayn, həm də onlayn təlimlər həyata keçirildi. Təlimlərin sonunda müəllimlər imtahan vermiş, topladıqları bala əsasən sertifikatla təmin olunmuşlar. Ancaq bu təlimlər yalnız ibtidai sinif müəllimlərini əhatə etməsi, işin tam həll olunması demək deyil. İnklüziv təhsilin təhsilin bütün pillələrində və səviyyələrində təşkili nəzərdə tutulubsa, deməli, təlimlər bütün müəllimləri əhatə etməlidir.

*Tez-tez inklüziv təhsilin Skandinaviya modeli deyə bir anlayışla qarşılaşırıq. Bu modelin əsas üstünlüyü ondan ibarətdir ki, inklüziv təhsil Skandinaviya ölkələrində qanunvericilik səviyyəsində öz əksini tapıb* (3). Yəni bu sistem qanunla təsbit olunduğu üçün qəbul olunan Dövlət Proqramları da qanundan irəli gələrək mükəmməl mexanizm əsasında işləyir. Azərbaycanda isə İnklüziv təhsil qanunvericilik səviyyəsində təsbit olunmadığı üçün mexanizmin uğurlu və sistemli şəkildə həyata keçirilməsi, eyni zamanda yüksək nəticələrin əldə olunması bir çox hallarda mümkün olmur. Skandinaviya ölkələrində qeydiyyata alınmış sağlamlıq imkanları məhdud uşaqlar kütləvi məktəblərdə təhsil alırlar və onlarla xüsusi pedaqoji heyət maraqlanır. Hətta Danimarkada inklüziv təhsilin tətbiqi üçün Milli Strategiya belə hazırlanıb.

Beləliklə, dövlət tərəfindən Azərbaycanda əlilliyi olan uşaqların təhsil hüququnun təmin edilməsi istiqamətində bir sıra işlər həyata keçirilir. Sadəcə olaraq qəbul olunan layihələr, proqramlar geniş çevrəni əhatə etməməklə qalmır, icra mexanizmində bir sıra problemlərin mövcudluğunu da özündə saxlayır. Problemin əsas həll yollarından biri Skandinaviya modelində olduğu kimi inklüziv təhsilin qanunvericilikdə təsbit olunması və qanunla tənzimlənməsidir.

Son olaraq qeyd edək ki, UNİCEF-in öz rəsmi səhifəsində 2018-ci il üçün Azərbaycanda inklüziv təhsildə mövcud olan problemlərlə bağlı bu müddəalar öz əksini tapıb:

— *Əlilliyi olan şagirdlərin təhsil prosesində digər şagirdlərlə bərabər səviyyədə iştirakını təmin edən qanunvericilik bazasının və siyasətin mövcud olmaması;*

— *Məktəblərdə əlilliyi olan uşaqlar üçün fiziki şəraitin mövcud olmaması;*

— *Müəllimlərin əlilliyi olan uşaqlarla iş təcrübəsinə, həmçinin sinif otağında köməkçi texnologiyalardan istifadə üçün zəruri biliklərə malik olmaması;*

— *Əlilliyi olan uşaqların təcrid olunmasına səbəb olan yanlış məlumatlardan qaynaqlanan münasibətlərin və dərin kök salmış sosial normaların mövcudluğu* (4).

Hər halda göstərilən problemlərin həlli istiqamətində Azərbaycan dövləti kifayət qədər layihə və proqramlar həyata keçirib ki, təsbit olunan problemlər minimuma ensin.

**Məqalənin aktuallığı.** İnklüziv təhsil sahəsində ən mühüm amillərdən biri də dərslərin təşkilindən sonra bu siniflərdə dərs deyəcək pedaqoji heyətin biliyi, təcrübəsi və psixoloji hazırlığı ilə bağlı məsələlərdir. Məqalədə də bu problemin bəzi istiqamətlərinə aydınlıq gətirilməsi onun aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə inklüziv təhsillə bağlı dövlət səviyyəsində qəbul olunmuş rəsmi sənədlərin əhəmiyyəti vurğulanmaqla, belə tədrisin bir sıra xarici ölkə modellərinin mühüm cəhətləri açıqlanır. Eyni zamanda, UNİCEF-in rəsmi səhifəsində Azərbaycanda inklüziv təhsildə mövcud olan problemlərə aydınlıq gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsilı məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // http://www.e-qanun.az/framework/37269.
2. İnklüziv siniflərdə təlimin təşkili. Təhsil İşçilərinin Peşəkar İnkişaf İnstitutu. Bakı, 2018.
3. Qaraxanlı R. İnklüziv təhsilin Skandinaviya modeli. // Azərbaycan müəllimi. 20 aprel, 2018.
4. UNİCEF - Azərbaycan İnklüziv təhsil //
https://www.unicef.org/azerbaijan/az/inkl%C3%BCziv-t%C9%99hsil

**К.С. Омарова**

## Международные отношения и государственная политика в развитии инклюзивного образования

## Резюме

Статья посвящена государственной политике в рамках международных отношений по анализу нормативно-правовых документов по развитию инклюзивного образования в Азербайджане. Отмечается, что отчетливо чувствуется особая забота правительства в этой сфере. Просто недостатки в механизме реализации и реализации отдельных пунктов Госпрограммы создают препятствия для радикального решения проблемы. Таким образом, пункты, содержащиеся в принятых документах, остаются на бумаге, а на деле являются неполными. Неполнота, отсутствие целостности, непоследовательность и слабая исполнительская деятельность приводят к тому, что проблема остается нерешенной.

Одним из важнейших факторов в сфере инклюзивного образования являются знания, опыт и психологическая готовность педагогического коллектива, который будет преподавать в этих классах после организации занятий.

**K.C. Omarova**

## International relations and public policy in the development of inclusive education

## Summary

The article is dedicated to the state policy in the framework of international relations in the analysis of legal and regulatory documents for the development of inclusive education in Azerbaijan. It is noted that the government's special care in this area is clearly felt. It is just that the shortcomings in the mechanism of implementation and implementation of certain items of the State Program create obstacles to the radical solution of the problem. Thus, the items contained in the adopted documents remain on paper, but in reality, are incomplete.

Incompleteness, lack of integrity, inconsistency, and weak executive performance result in the problem remaining unresolved.

One of the most important factors in the field of inclusive education is the knowledge, experience and psychological readiness of the teaching staff who will teach in those classes after the organization of classes.

**Redaksiyaya daxil olub:** 16.03.2022